# Gələcək nəsillər Zəfər tariximizi qürurla öyrənəcəklər

*Ekspertlərin fikrincə, Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi*

Sentyabrın 27-dən başlanan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə çevrildi. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Vurğulanmalıdır ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev istər hərb meydanında müzəffər sərkərdə, istərsə də diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, öz xalqı ilə vəhdətdə olan LİDER kimi mübarizlik rəmzinə çevrildi. Ən əsası isə noyabrın 8-də Şuşanın, 9-da 70-dən artıq kəndin, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınması, bunun ardınca, noyabrın 10-da Ermənistanın ağ bayraq qaldırması, kapitulyasiya etməsi, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin dekabrın 1-nə kimi daha 3 rayonun - Kəlbəcərin, Ağdamın və Laçının müharibəsiz və deməli qansız, şəhidsiz qaytarılmasını nəzərdə tutan birgə bəyanat imzalaması tariximizə Zəfər həftəsi kimi həkk olundu.




*Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev istər hərb meydanında müzəffər sərkərdə, istərsə də diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, öz xalqı ilə vəhdətdə olan LİDER kimi mübarizlik rəmzinə çevrildi*

Bununla bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı Vüqar İskəndərov bildirib ki, sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsində hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi, böyük sevinclə qarşılandı. Bu müddət ərzində Ermənistan ordusu haqqında ermənilərin özlərinin yaratdıqları "məğlubedilməzlik" mifi darmadağın oldu. Düşmən ordusunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Millət vəkili vurğulayıb ki, bu müddət ərzində Azərbaycan xalqı öz Liderinin, Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Prezident İlham Əliyev informasiya müharibəsində də Azərbaycanın haqq səsi oldu: **"Vətən müharibəsində Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsinə çevrildi. Düşmənin 30 ildir qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu. Noyabrın 8-də Şuşanın işğaldan azad olunması, 9-da 70-dən artıq kəndin düşməndən təmizlənməsi, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınması, bunun ardınca, noyabrın 10-da Ermənistanın təslimçi bəyanata imza atması ilə Azərbaycan son əsrlərin ən böyük zəfərini əldə etdi. Belə ki, Şah İsmayıl və Nadir şahdan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Buna görə də Azərbaycan xalqının bu uğurları uzun illər, əsrlər boyu unudulmayacaq, gələcək nəsillər 2020-ci ilin Zəfər tarixini qürurla öyrənəcəklər. Yaşasın Azərbaycan! Var olsun dövlətimiz!".**

*Noyabrın 8-də Şuşanın işğaldan azad olunması, 9-da 70-dən artıq kəndin düşməndən təmizlənməsi, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınması, bunun ardınca, noyabrın 10-da Ermənistanın təslimçi bəyanata imza atması ilə Azərbaycan son əsrlərin ən böyük zəfərini əldə etdi*

Milli Məclisin deputatı Cavid Osmanov da Azərbaycan dövlətinin 44 gün ərzində mümkün olmayanı bacardığını bildirib. Onun sözlərinə görə, bu Zəfərə, bu Qələbəyə görə məhz Azərbaycan Prezidentinə, Müzəffər Ali Baş Komandanımıza minnətdarıq. Zəfərimiz Prezident İlham Əliyevin 17 il ərzində həyata keçirdiyi düşünülmüş siyasət və güclü ordu quruculuğunun nəticəsidir: **"Biz xalq olaraq çox xoşbəxtik. Xoşbəxtik ki, illərdir bizi narahat edən və incidən problemi həll edə bildik, özü də böyük üstünlüklə. Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında daha da sıx birləşdi və biz kimliyimizi dünyaya göstərdi. Ölkəmizdə siyasi statusundan, siyasi baxışlarından asılı olmayaraq hamı bir nəfər kimi Müzəffər Ali Baş Komandanın ətrafında cəm oldu. Döyüş meydanında əks-həmlə əməliyyatlarına rəhbərlik edən Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya müharibəsində də ön sırada oldu. 44 gün ərzində dünyanın tanınmış və nüfuzlu informasiya agentliklərinə 30-dan çox müsahibə verən Prezident İlham Əliyev Azərbaycana qarşı olan, haqq işimizə kölgə salamağa çalışanlara öz siyasi bacarığı ilə anındaca cavab verir, ölkəmiz haqqında feyk məlumatlar əsasında formalaşdırılan fikirləri öz tutarlı fakt və arqumentləri ilə alt-üst edirdi. Bir sözlə, Prezident İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə isə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu. Qələbəmiz tarixidir və bu qələbə gələcək inkişafımızda yeni bir mərhələnin başlanğıcına çevriləcək".**

**Pərviz SADAYOĞLU**

# Azərbaycan Ədliyyəsinin 102 yaşı tamam olur

1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycanda dövlətçiliyin demokratik əsaslarla formalaşması prosesi başlandı. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk dövlətçilik ənənələrinin təməlini qoydu, yeni hüquq sistemi formalaşdı və qanunvericilik aktları qəbul olundu.

Demokratik Cümhuriyyətdə hökumətin və parlamentin gördüyü işlər müstəqil dövlətin möhkəmləndirilməsinə xidmət edirdi. Azərbaycan Ordusunun yaranması, iqtisadiyyatın gücləndirilməsi və mədəniyyətimizin inkişafı yolunda böyük işlər görüldü və bir sıra hüquqi aktlar qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bir gündə Ədliyyə Nazirliyi də təsis edildi. 1918-ci ilin noyabr ayının 22-də Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq olundu. Müstəqil Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyi dövlətçiliyin inkişafında mühüm rol oynadı. Ədliyyə Nazirliyi ölkənin hüquq sahəsində qanunçuluğu təmin etmək məqsədilə qısa müddət ərzində məhkəmə sistemində mühüm işlər görə bilmişdir. Azərbaycan Xalq Cümhuriyyətində prokurorluq orqanları müstəqil olaraq fəaliyyət göstərmiş və Azərbaycan məhkəmə sisteminin nizamnaməsi qəbul olunmuşdur. Bununla yanaşı, cəzaçəkmə müəssisələri Ədliyyə Nazirliyinin tabeçiliyinə verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Sovetlər imperiyası tərəfindən süquta uğradıldıqdan sonra 13 may 1920-ci ildə Ədliyyə Nazirliyi ləğv edilmiş və əvəzində Xalq Ədliyyə Komissarlığı qurulmuşdur. Xalq Ədliyyə Komissarlığı məhkəmə kadrlarının hazırlanması, məhkəmə və prokurorluq orqanlarına nəzarəti, həmçinin notariat orqanlarının işini təşkil etmişdir.

1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyinin yenidən qurulması Azərbaycan Ədliyyəsinin tarixində mühüm rol oynamışdır.

Azərbaycan Ədliyyəsinin bu mərhələdə inkişaf tarixi Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi bir dövrə təsadüf edir. SSR-nin süqutundan sonra Azərbaycan yenidən öz müstəqilliyini elan etdi. Müstəqillik illərinin ilk vaxtlarında Azərbaycanda yaranan xaos və hərc-mərcliyin qarşısının alınması məqsədilə xalqın təkidi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı. Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə sabitliyin, hüquqi-demokratik dövlətin yaranmasının qarantı oldu. Ümummilli Lider ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil məhkəmə sistemi yaradılması prinsiplərinə əsaslanan ədliyyə orqanlarının yenidən təkmilləşdirilməsini təmin etdi. 11 noyabr 2000-ci il tarixli Sərəncamla, 22 noyabr Ədliyyə Nazirliyinin ilk Əsasnaməsi təsdiqləndiyi gün Respublikamızda ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunmağa başladı.



**Rauf Əsədov**
**Mühafizə Alayının komandiri vəzifəsini icra edən ədliyyə mayoru**

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ədliyyəsi inkişaf yolunda bir çox uğurlar əldə etmişdir. Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Ədliyyəsinin inkişafına dair dövlət proqramı ilə təsdiq olunmuş müsbət göstəricilər əldə olunmuşdur.

Qeyd edə bilərəm ki, Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ədliyyəsi bu gün Prezident Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə öz şərəfli vəzifəsini uğurla davam etdirir.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Mühafizə Alayı müstəqil dövlətimizin və xalqımızın inkişafı yolunda hər zaman dövlətə və dövlətçiliyə sadiqliyini nümayiş etdirmişdir. Mühafizə alayının əsas vəzifələri Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrinin mühafizəsi və müdafiəsidir. Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Mühafizə Alayında aparılan islahatlar nəticəsində Alayın əməkdaşlarının və müddətli həqiqi hərbi qulluqçularının sosial rifahının və məişət şəraitinin yaxşılaşdırılması Alayda xidmətin hüquqi qanuni akt və nizamnamələrin tələblərinin əsasında qurulmasını təmin edir.

Azərbaycan Ədliyyəsinin bu ilə təsadüf edən 102 yaşı daha əlamətdardır. Çünki 2020-ci il Azərbaycan xalqı üçün tarixi ildir. Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun apardığı uğurlu əks-hücum əməliyyatları nəticəsində Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Qeyd etmək istərdim ki, işğal olunmuş torpaqların azad edilməsi və ərazimizin bərpa olunması həm də vətəndaşlarımızın hüquqlarının bərpası və güclü bir dövlətin əsasını bərqərar edir. Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə 44 gün ərzində əldə etdiyimiz böyük qələbə hərb tarixinə düşəcək uğurlarımızdandır. Azərbaycan Ədliyyəsinin 102 illiyinin əldə etdiyimiz şanlı qələbə ilə bir vaxta təsadüf etməsi bu tarixi daha da əhəmiyyətli edir.




# Şəfiqə Məmmədova: Rasim Ocaqov milli kinomuzun simvoludur





Bir vaxtlar Azərbaycan milli kinosunun özündə elə bil ayrıca "kino adası" - "Ocaqovun kinosu" var idi, indi də var və həmişə yaşayacaq. Sanki özü üçün yaratmışdı o aləmi - öz ssenaristləri, öz sevimli aktyorları, öz bəstəkarları, yaradıcı heyəti və bu aləm sözün əsl mənasında, onun əsl həyatı idi. O, başqa həyatı istəmirdi.

Bu sətirlər Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, Xalq artisti, professor Şəfiqə Məmmədovanın kino sənətimizin görkəmli nümayəndəsi, rejissor, operator, SSRİ və respublika dövlət mükafatları laureatı, Xalq artisti Rasim Ocaqovun anadan olmasının 87-ci ildönümü ilə bağlı AZƏRTAC-a təqdim etdiyi qeydlərdə yer alır.

Xalq artisti yazır: "Özümü xoşbəxt insan sayıram ki, Rasimin sənət aləmində, onun kinosunda mən də var idim. Onun ən şöhrətli, ən uğurlu filmlərində çəkilmişəm. Bir yerdə yaşadıq o uğurları - "İstintaq" filminə görə SSRİ Dövlət Mükafatına, "Ad günü" filminə görə isə Azərbaycan Dövlət Mükafatına layiq görüldük. Bu filmlər mənim həyatımda, taleyimdə ən bəxtəvər və gözəl xatirə kimi yaşayacaq.

Rasim Ocaqov öz aktyorlarını çox sevirdi. Onun üçün filmin uğurunu şərtləndirən əsas amil aktyor ansamblının bütövlüyü idi... Heç bir məsələdə kompromislərə getməzdi... Dostluqda çox möhkəm, vəfalı və sədaqətli idi.

Rasim Ocaqov mənalı və gözəl həyat yaşadı. Düz yaşadı! Heç nədə gözü yox idi. Azərbaycan milli kinosu onun varlığı, həyatı idi.

Kamera, çəkiliş meydançası və öz dünyası - bunlar idi onun dövləti, varı. O da bu sərvəti, çəkdiyi filmləri öz xalqına miras qoyub getdi. Xalq da onun adını həmişə yaşadır. Elə çəkdiyi filmlər də Rasim Ocaqovu əbədi yaşadacaq!

Hansısa tədbirdə çıxışım zamanı etiraf etdim: "Mən səhnədə və çəkiliş meydançasında çox xoşbəxt və azad idim". Kamera qarşısında isə çətin məqamlarda azad və xoşbəxt olmaq, yaşamaq, yaratmaq hissini mənə Rasim Ocaqov bəxş edib. Bunlar üçün mən Rasimə minnətdaram! Onun mənə olan böyük hörmətinə, diqqətinə, sevimli aktrisası olmağıma və çox uzun illər davam edən dostluğumuza görə minnətdaram.

Ömrünün son aylarında həmişə bir yerdə idik. Demək olar ki, hər gün Kinematoqrafçılar İttifaqının binasında görüşürdük. Hansısa səbəblərdən çəkilişləri dayandırmışdı. Çox narahat idi. Özünə yer tapmırdı. Nəhayət, bir gün çox ehtiyatla soruşdum: Rasim, nədir səni incidən, səni belə narahat edən? Üzümə baxdı və susdu. Sonra çox inandırıcı və məyus şəkildə cavab verdi: "Çəkmirəm, deməli yaşamıram. Mən belə yaşaya bilmirəm. Mən belə yaşamaq istəmirəm". Elə də oldu... Rasim yaşamadı...

Azərbaycan milli kinomuza elə bir böyük itki üz vermişdi ki, biz hələ də bu itkinin ağrısını çəkməkdəyik.

Ömrünü Azərbaycan kinosuna həsr elədi Rasim Ocaqov və kinomuzun təkrarsız epoxasını da özü ilə apardı. Artıq bu gün Rasim Ocaqov milli kinomuzun bir simvoludur!".

P.S. Xatirələrim o qədər çoxdur ki, qismət olsa Rasim Ocaqov barədə xatirə kitabı yazacağam...

# Yeni reallığı qəbul edə bilməyən Fransa erməniпərəst mövqeyini davam etdirir

Xəbər verildiyi kimi, yaxın günlərdə Paris meriyası qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımağa hazırlaşır. Qeyd edək ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa qurumun fəaliyyəti dövründə davamlı şəkildə erməniпərəst mövqeyi ilə seçilib, həmsədr ölkə mandatının prinsiplərini pozaraq işğalçı Ermənistana hərtərəfli dəstək verib. Erməni lobbisinin ciddi təsiri altında olan Fransa hökuməti və şəxsən prezident Makron ermənilərin dəstəyini əldə etmək üçün müharibə dövründə işğalçı ölkəyə siyasi, iqtisadi və hərbi dəstək göstərib.

Şübhəsiz ki, Fransa hakimiyyəti bu addımı sanksiyalaşdırmaqla qondarma rejimin ləğv olunmuş statusu məsələsini aktuallaşdırmaq, məsələnin həllini ölü qurum kimi tanınan ATƏT-in Minsk qrupu çərçivəsində mənasız müzakirələr müstəvisinə qaytarmaq niyyəti güdür. Bu da onu göstərir ki, Fransa hakimiyyəti hələ də köhnə stereotiplərin əsiridir və yeni reallığı qəbul edə bilmir. Fransa hakimiyyətinin mövqeyi və cəhdləri onsuz da ölü qurum olan ATƏT-in Minsk qrupunun həmsədrlik institutunun tam məhv edilməsinə istiqamətlənib.

Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov bildirib ki, Paris meriyasının qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımağa hazırlaşması barədə məlumatlar bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədri kimi öz üzərinə düşən öhdəlikləri yerinə yetirməkdə maraqlı olmadığını göstərir. Milli Məclisin deputatı qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınması ilə bağlı layihənin daha öncə Fransa Milli Assambleyasında da müzakirəyə çıxarılmasına təşəbbüs göstərildiyini, lakin məsələnin mahiyyətini bilən, Azərbaycanla dostluq əlaqələrinə malik deputatlar tərəfindən bunun qarşısının alındığını diqqətə çatdırıb: **"Bildiyiniz kimi, Fransa Milli Assambleyasında Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir. Qrupun üzvləri hər zaman Azərbaycanın ədalətli mövqeyini müdafiə ediblər. Bu ilin iyul ayında Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribat zamanı da dostluq qrupunun üzvləri ölkəmizin ədalətli mövqeyini müdafiə xarakterli cəsarətli çıxışlar etmişdilər. Onlardan bir neçəsi bu günlərdə ölkəmizdə səfərdə oldular, Ermənistanın dinc sakinlərə qarşı törətdiyi hərbi cinayətlərin nəticələrini öz gözləri ilə gördülər".**

Deputat bildirib ki, Fransanın bu cür addımları vəziyyəti yenidən gərginləşdirə, regionda sabitliyi və sülhü pozmağa səbəb ola bilər. O qeyd edib ki, Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı da Fransa bir neçə dəfə əsassız ittihamlarla çıxış edərək öz neytrallığını qorumadığını göstərmişdi. **"Hərbi əməliyyatlar bitdikdən sonra da, biz Fransanın müxtəlif vasitələrlə "status" mövzusunu gündəmə gətirmək təşəbbüslərini müşahidə edirik. 30 ilə yaxın bir müddətdə münaqişəni nizamlaya bilməyən ATƏT-in Minsk qrupunun fəaliyyətini yenidən canlandırmaq cəhdlərini görürük. Əsas məqsəd Ermənistanın ağır məğlubiyyətinin siyasi müstəvidə təsbitinə mane olmaqdır. Çox təəssüf ki, Fransa hələ də reallığı düzgün qiymətləndirə bilmir".**

Soltan Məmmədov bildirib ki, Fransanın yürütdüyü siyasət ikitərəfli münasibətlərə ciddi təsir göstərə bilər. Azərbaycan bütün dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşır, özünə qarşı da eyni münasibət gözləyir. **"Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi ötən müddətdə münaqişənin həllinə heç bir töhfə verməyib. İndi Azərbaycan öz gücünə ərazi bütövlüyünü təmin edib. BMT Nizamnaməsinə uyğun olaraq öz ərazisini və əhalisini qorumaq hüququndan istifadə edib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi məhz Azərbaycan Ordusunun gücü hesabına icra olunub. Paris meriyasının qondarma rejimi müstəqil qurum kimi tanıması nəticəni dəyişə bilməz. Bu, Fransanın özünün imicinə və beynəlxalq nüfuzuna da ciddi zərbə olardı",** - deyə millət vəkili əlavə edib. O, qeyd edib ki, Paris meriyasının məlum təşəbbüsünün arxasında erməniпərəst qüvvələr dayanır. Fransa kimi aparıcı bir ölkənin xarici siyasətinin erməni lobbisinin təsirinə məruz qalması isə yalnız təəssüf doğurur.



Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə də deyib ki, 44 günlük müharibə dövründə və ondan sonrakı günlərdə Fransanın anti-Azərbaycan mövqeyində durmasını bu ölkənin bəyanatlarında və əməllərində səmimi olmadığının nümayişidir. ATƏT-in Minsk qrupunun həmsədri kimi neytral mövqe tutmaq əvəzinə Ermənistanı açıq şəkildə dəstəkləməsi, hətta bu ölkənin rəsmilərinin məsuliyyətsiz bəyanatlar verməleri, fikirlər səsləndirmələri Fransanın beynəlxalq etimad limitini tükətməkdə olduğunu diqqətə çatdıran V.Rəhimzadə deyib ki, bu kontekstdə Paris meriyasının məlum təşəbbüsü və bununla bağlı Paris merinin fikirləri nəinki Azərbaycan-Fransa münasibətlərinə, hətta beynəlxalq hüququn norma və prinsiplərinə ciddi zərbə vurur: **"Əslində, bu fikirlərlə fransız məmur Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirmək niyyətini ortaya qoyur. Fransa rəsmisinin bu cür fikirlər səsləndirməsi, ilk növbədə, bu ölkənin öz nüfuzuna xələl gətirmiş olur. Belə görünür ki, Fransa kimi bir ölkə 3-5 erməninin əlində əsir-yesir qalıb, yaxud erməni lobbisi tərəfindən bu dövlətin rəsmiləri satın alınıb. Parisin meri Ann İdalqonun sərsəm fikirlərinin kökündə erməni lobbisinin niyyəti dayanır. Hər kəs yaxşı bilir ki, mer Ann İdalqo Fransa erməniləri ilə sıx işbirliyindədir. Hətta onun müavinlərindən biri erməni əsilli Anuş Toronyandır. Anuş Toronyan isə Fransa ermənilərinin "CCAF" təşkilatının rəhbəri Ara Toronyanın qızıdır. Bu fakt özlüyündə sübut edir ki, Paris meri Ann İdalqonun sərsəm fikirlərinin kökündə erməni lobbisinin niyyəti dayanır".**

Paris merinin 2015-2018-ci illərdə Ermənistanın o vaxtkı prezidenti Serj Sarkisyanla 4 dəfə görüşdüyünü bildirən baş redaktor deyib ki, erməni lobbisi ilə sıx işbirliyində olan Paris meri Ann İdalqo anlamalıdır ki, o, Fransanın milli maraqlarını bir qrup erməninin girovuna, daha doğrusu nəfsinin alətinə çevirib. **"Bu gün nəinki Paris meri, hətta Makron da anlamalıdır ki, Ermənistanın belə tanımadığı qondarma separatçı rejimi dəstəkləməklə Fransa faktiki olaraq terrorizmi, işğalçılığı, təcavüzü dəstəkləmiş olur. Bəlkə də, Paris meri bu cür təşəbbüslə çıxış etməklə dünyaya bir daha mesaj vermək istəyir ki, Fransa yaxın keçmişdə əli milyonlarla insanın qanına batmış, ayrı-ayrı xalqlara qarşı soyqırımı törətmiş bir ölkədir",** - deyə V.Rəhimzadə qeyd edib.

**Pərviz SADAYOĞLU**